# Astanada Azərbaycan-Qazaxıstan münasibətlərinin inkişafı müzakirə olunub

**Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov Qazaxıstan Prezidentinin beynəlxalq məsələlər üzrə müşaviri Yernar Lazar ilə işgüzar görüş keçirib.**

AZƏRTAC xəbər verir ki, tərəflər Qazaxıstan-Azərbaycan əməkdaşlığına dair bir çox məsələni müzakirə ediblər.

Görüş zamanı energetika və bərpaolunan enerji mənbələri sahəsində birgə layihələr nəzərdən keçirilib. Xəzər dənizinin dibi ilə fiber-optik kabelin çəkilməsi layihəsinin icrasının gedişinə xüsusi diqqət yetirilib.

Tərəflər həmçinin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət, yüksəksəviyyəli səfərlərin hazırlanması və mədəni-humanitar əlaqələrin inkişafını müzakirə ediblər.

Bundan əlavə, Hökumətlərarası Komissiya da daxil olmaqla, mövcud ikitərəfli əməkdaşlıq mexanizmləri çərçivəsində aparılan fəaliyyət müzakirə mövzusu olub.

Görüş iştirakçıları Azərbaycanın "C5+1" formatında iştirakını məmnunluqla vurğulayıb, bunun regional əməkdaşlığın inkişafına əlavə



təkan verəcəyinə əminlik ifadə ediblər. Tərəflər 2025-ci il 8 avqust tarixində Vaşinqtonda Azərbaycan Prezidenti ilə Ermənistanın Baş naziri arasında keçirilmiş görüşə dair imzalanmış Birgə Bəyannamənin, həmçinin sülhün bərqərar olunmasının regionda nəqliyyat-kommunikasiya əlaqələrinin açılmasına və ticarətin genişlənməsinə töhfə verəcəyinə əminliklərini bildiriblər.

Azərbaycan.- 2026.-13 fevral (№28).- S.4.